# KOMMYNIST

XIII-nci il
ƨovamь
168(3283)
KIJMƏTI 5 KƏPIQ

A. K. (b) F. Mərqəzi və Baqь Komitələri, Az. M. I. Komitəsi və Baqь Şyrasьnьn organь.

Idarənin telefonlarь: Mudir və Qatib 18-30 Sijasi və Qənd şe'bələri 20-76 istihsalat şe'bəsi 11-78 baş Kontor 30-95 Mətbəə-9.
ADRES: Baqь Zinovjev quçəsi № 14.

## Şəqi politexnikləşmə kyrslarь

Politexnizmlə silahlanmьş hazьr pedagoglar kadrosy joklygy, Azərbajcan məqtəblərinin politexnikləşməsi sahəsində karşьmьzda dyran ən bejuq çətinliqlərdəndir. By ihtijacь nəzərə alarak A. X. M. Komisarlьgь qənd və dairə muəllimlərinin ixtisaslarьnь artьrmak və onlarь politexnikləşmənin əsas əməli məsələləri ilə aşna etməq uçun Şəqidə bir ajlьk politexnikləşmə kyrslarь açmьşdьr. Bir çok dairələrdə vaktьnda hazьrlьk işləri aparьlmamasь nəticəsi olarak, kyrs məşgələləri qeciqmiş ancak ijynyn 23-ndən işə başlamьşdьr. Qejçaj, Qəncə qibi dairələr ez normalarьna duşən muəllimləri qendərməmiş, hərəsi 7 nəfər əvəzinə 2 muəllim jola salmьşdьr. Agdaş dairəsi isə politexnizm kyrsyna muəllim qendərməjə «tənəzzul» etməmişdir.

Bynlarьn nəticəsi olarak, kyrsa verilən 400 nəfərliq kontrol rəkəmi jerinə jetirilməmiş ancak 300 muəllim toplanmьşdьr. Nəzəri dərslər təcrubə dərslərindən ajrь olarak, (hərəsi 15 qun) aparьlmьşdьr. Butun by nuksanlara bakmajarak Şəqi politexnizm kyrsynyn politexnik tərbijə ilə silahlandьrdьgь 300 nəfərliq muəllimlər ordysy, **Stalin** joldaşьn texnikajь ələ almak şuarьnь jerinə jetirməq jolynda məqtəblərimizin həkiki politexnizm və istihsalat tərbijəsi ocaklarьna çəvrilməsi ygrynda çarpьşacaklar.

**Sabit Rəhman.**